BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2008*

# QADIN BƏZƏKLƏRİ VƏ ONUNLA ƏLAQƏDAR OLAN ADƏT-ƏNƏNƏLƏR

**B.Ə.RƏCƏBOVA**

***AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu***

Təbiəti hələ dərk etmək iqtidarında olmayan ibtidai insanlar dünyanın müxtəlif ruhlardan ibarət olduğunu güman edirdilər. Onlar özlərini pis ruhlardan qorumaq və yaxşı ruhları köməyə çağırmaq üçün onların formasını yaradır, hər hansı bir əşyanın üzərini müxtəlif işarələrlə bəzəməklə bir növ müdafiə sistemi yaradırdılar.

Maddi dəlillər əsasında sübut olunmuşdur ki, bəzək əşyaları və geyim, ilk növbədə, praktiki əhəmiyyətə malik olmaqla, həm də qoruyucu və xəstəliklərin qarşısını almaq funksiyası yerinə yetirmişlər.

İbtidai icma quruluşu dövründən kütlələrin həyatına daxil olan və bütün dövrlərdə simvolik məna daşıyan amuletlər insanları şər qüvvələrdən və xəstəliklərdən qoruma vasitəsi kimi istifadə edilmişdir. Bu amuletlər uşaqların boyunlarından asılır, yaxud da paltarlarının sol çiyninə tikilirdi. Onların üzərində «Qurani Kərim»dən ayələr, dualar yazıldığı üçün, «yazılı amuletlər» də adlanırdı. Azərbaycan ərazisində hələ tunc dövrü abidələrindən müxtəlif heyvan fıqurları şəklində hazırlanmış asmaların tapılması sübut edir ki, bu adət hələ islamdan əvvəlki dövrlərdə mövcud olmuşdur.

Qadın bəzək əşyaları arasında qızıldan hazırlanmış «arpa» adlanan bəzəklərin də özünəməxsus rolu olmuşdur. Adından göründüyü kimi bu bəzək arpa formasında olduğu üçün belə adlanmışdır. Bu bəzək həm boğazaltı kimi işlənmiş, həm də bir sıra qadın üst paltarlarının yaxa və ətəyini bəzəmişdir. Arpa bir növ bolluq rəmzi olub, var-dövlətin artması ilə əlaqədar idi.

Gözmuncuqları da təkcə bəzək kimi deyil, həm də qoruyucu kimi geniş istifadə olunmuşdur. Pis gözlərdən, bəd-nəzərdən qorunmaq vasitəsi kimi o indi də qadın bəzəkləri sırasında özünəməxsus rola malikdir. Mərkəzi Asiya xalqları arasında o, «kuzmulçok» adlanır [1, 92].

Gözmuncuqlarla yanaşı, mərcan muncuqlar da ilahiləşdirilirdi. XIX əsrdə mərcan muncuqlar dünyanın bir sıra ölkələrində ən çox dəbdə olan muncuq növü olmuşdur. Bu muncuqların rəngi qırmızı olduğu üçün xalq ona sağlamlıq rəmzi kimi baxırdı. Bu muncuq növü Ukrayna, tacik, özbək və başqa dini əqidəyə malik insanlar tərəfindən böyük məmnuniyyətlə gəzdirilirdi.

Tacik və özbəklərdə mərcan muncuqları əsasən cavan qız və qadınlar gəzdirirdi. Milli ənənələrə görə o, həm də var-dövlət və bolluq rəmzi sayılmış, nəsil artımı simvolu kimi çoxuşaqlığı təmin edirdi.

Mərcan muncuqlar Azərbaycan qadınları arasında da dəbdə olmuşdur.

Azərbaycan zərgərləri bəzək əşyalarının hazırlanmasında qiymətli daşlar da işlədirdilər. Bəzək elementi olmaqla yanaşı, bu daşlar ilahi qüvvəyə malik hesab edilirdi. Bu fikir uzun zaman insanların təfəkküründə yaşamışdır. Bir sıra daşlara isə müalicəvi əhəmiyyətinə görə də münasibət bəslənirdi (2).

Orta əsrlərdə yaşayıb-yaratmış Nəsirəddin Tusi «Cəvahirnamə» əsərində qiymətli minerallardan qırmızı yaqut (rubin), göy yaqut (sapfır), almaz (brilyant), ləl və fıruzə kimi daşların təsvirini vermiş, yarımqiymətli daşlardan isə süleymandaşı (qranat), mirvari, ametist, malaxit və s-in xüsusiyyətlərindən bəhs etmişdir. O, qiymətli mineralların və yarımqiymətli daşların müalicəvi əhəmiyyətini də göstərmişdir (3, 8).

Etnoqrafik materiallardan aydın olur ki, azərbaycanlı zərgərlər öz işlərində əsasən «Cəvahirnamə» əsərində adları çəkilən qiymətli daşlardan istifadə etmişlər. Bu baxımdan firuzə xarakterinə görə digər daşlara nisbətən daha üstün mövqeyə malik olmuşdur. N.Tusi firuzənin 7 növü olduğunu yazmışdır (3, 22).

Bu daşla əlaqədar bir sıra inamlar da vardır. Məsələn, inamlara görə fıruzə insana xoşbəxtlik və xoş əhval-ruhiyyə gətirir. Xüsusilə qadınlar həmişə fıruzə gəzdirməlidirlər ki, sevdikləri şəxsin onlara qarşı məhəbbəti artsın. Firuzə eyni zamanda təmizlik rəmzi sayılırdı. Əbu Reyhan Əl-Biruni bu daş haqqında yazırdı ki, «fıruzə gözdəymədən xilas edir və onu gəzdirənə qələbə gətirir» (2, 157).

Azərbaycanlıların da etiqadlarına görə qadında fıruzə qaşlı üzük olursa, bu ona xoşbəxtlik gətirər. Əgər qadın öz ərinə xəyanət edərsə, fıruzə öz rəngini dəyişərək, qaralar.

Farslara görə, fıruzə sevgidən ölmüş insanların sümüklərindən əmələ gəlmişdir (4, 107). Ona çox baxdıqda görmə qabiliyyətini artırır və insana xoş əhval-ruhiyyə bəxş edir. Eyni zamanda bütün gün ərzində pis fikirlərdən uzaqlaşdırır və gecələr qorxulu yuxulardan azad edir. Firuzə daşı, deyilənlərə görə köhnəlir, təzələnir və yenidən dirilir. Müxtəlif yağlar, sabun və nəmliyin təsiri altında o, rəngini dəyişə bilir. Bu daşa və fıruzə qaşlı üzüklərin üzərinə keçmiş zamanlarda «Qurani-Kərim»dən də kəlamlar yazılırdı.

Ən yaxşı firuzə daşı İranın Nişapur mədənlərindən gətirilən daş hesab olunurdu. O, təkcə Azərbaycanda deyil, İran, Türkiyə, Misir, Çində və digər Şərq ölkələrində istifadə olunan sevimli daşlardan sayılır.

Rəngli daşlardan olan əqiq (serdolik) xalq arasında həm bəzək, həm də qoruyucu rolunu oynamışdır. Bu daş hələ tunc dövründən başlayaraq «günəşə» yaxın sayılırdı. Qədim təsəvvürlərə görə onda canlını xəstəlik və ölümdən qoruya biləcək ilahi qüvvə vardır. Bu daş təkcə sırğaların qaşında deyil, möhür üzüklərin və muncuqların hazırlanmasında da istifadə olunub, qoruyucu vasitə rolunu da oynayırdı (5, 105).

Əqiqlə (serdoliklə) əlaqədar xalq arasında belə bir kəlam var: hər kəs ki, üzüyündə əqiq gəzdirirsə o, həmişə xoşbəxtlik və səadətlə təmin edilmiş (6, 312), şər qüvvələrdən və xəstəliklərdən xilas olar. Tatlarda olan inama görə əqiq insanı zədələrdən qoruyur. Məsələn, əgər insan uçmuş evin altında qalarsa, əqiq onu xilas edər. Bundan başqa o, hamilə qadınlarda ağrıları kəsir, südü kəsilmiş qadınlarda isə süd əmələ gətirir.

Əqiqin vətəni Hindistan və Yəmən ölkələri sayılır. Deyilənə görə ən yaxşı əqiq növü qırmızı rəngdə olandır. Etnoqrafik müşahidələrə əsa-

sən demək olar ki, indi də körpə uşaqların paltarlarına əqiq muncuq taxırlar. Hesab olunur ki, o, körpə uşaqlarda qusmanı dayandırır.

İnamlara görə, qara rəngli şəvə muncuqlar da insanı nəzərdən qoruyur. Bu muncuğu gəzdirən şəxs heç bir şeydən qorxmur. Nizami Gəncəvi öz əsərlərində qiymətli daşların təkcə bəzək kimi deyil, həmçinin rəmzi məna daşıdığından da söhbət açır. «Xəmsə»də mina və şəvədən bənzətmə kimi istifadə edən şair yazır:

Minalar (yaşıl qaşlar) arasında şəvə (qaradaş) kimi
Çevik və sayıq budaqda oturmuşdu (7, 124).

Sırğa və üzüklərin qaşını bəzəyən zümrüd isə öz rənginin gözəlliyinə görə digər daşlardan fərqlənir. O, həmçinin gizli tilsim xarakteri daşımış, göz xəstəliklərindən qorumuş, gözlərin işığını artırmaq və insanı fıkirdən azad etmək qabiliyyətinə malik olmuşdur.

Azərbaycanlıların etiqadlarına görə zümrüd ikili səciyyə daşımışdır. Bir tərəfdən o bakirəliyi qorumaq, digər tərəfdən də qadınları hamiləliklərdən tez azad etmək qabiliyyətinə malik olmuşdur. Bu adət tatlar arasında daha geniş yayılmışdır. Deyildiyinə görə, zümrüdü gəzdirən şəxs pis yuxu görməz, dəli olmaz. O, ürəyə qüvvət verir, qanaxma, qızdırma kimi xəstəliklərin müalicəsində faydalıdır. Zəhərlənmiş şəxsə də vaxtilə zümrüd tozu verərdilər. İnsanı zəhərli qurd-quş sancdıqda zümrüd tozunun məhlulu xeyirli və faydalı sayılır (3, 19).

Əl-Biruni «Mineralogiya» əsərində yazırdı ki, qiymətli daşların ən yaraşıqlısı və dəyərli olanı yaqut daşıdır (2, 34). O, yaqutun ağ, göy, sarı və qırmızı rəngli növlərini sadalayaraq, ayrı-ayrılıqda hər birinin xüsusiyyətlərindən danışır. Nəsirəddin tusi isə «cəvahirnamə» əsərində yaqutun xüsusiyyəti və ondan istifadə haqqında belə yazır: «hind alimlərinə görə, yaqutu özü ilə gəzdirən şəxs taun xəstəliyindən qorunar və vəba xəstəliyinə tutulmaz. Yaqutu ağıza saldıqda ürəyə qüvvət verər, qüssə və kədəri unutdurar, susuzluğu söndürər. Başqa cəvahirlərdən fərqli olaraq, ağızda ikən soyuqluğunu itirməz.

Yaqutu gəzdirənlər başqalarının gözündə heybətli və əzəmətli görünər. Bir dərman kimi o gözün işığını artırar və sağlamlığını qoruyar (3, 17).

Çox güman ki, azərbaycanlı qadınlar da bu daşın həm gözəlliyini, həm də xeyirli xüsusiyyətlərini nəzərə alıb, ondan istifadə etmişlər.

Qədim dövrdən başlayaraq Azərbaycanda mirvari ilə işlənmiş bəzək əşyalarından və mirvari boyunbağılardan istifadə olunmuşdur. Mirvarinin bir sıra xüsusiyyətləri onu digər daş-qaşlardan fərqləndirirdi. Mirvari odun istisindən sıradan çıxır və saralır. Rütubət mirvarinin suyunu qaçırır. O, bəzək olmaqla yanaşı, insanın ürəyinə qüvvət verir, ürək tutulmasına və sıxıntılarına son qoyur, boğazdan gələn qanı kəsir (3, 14). Göz xəstəlikləri zamanı mirvarini toz halına salıb gözə tökürlər. Bu isə gözün gücünü və görmə qabiliyyətini artırır.

Rəngli daşların gözəlliyi və onların müalicəvi xarakteri insanların diqqətini hələ qədim zamanlardan cəlb etmiş və müasir dövrümüzə qədər də gəlib çatmışdır. Hətta ilin hər ayının öz daşı olmuşdur. Məsələn, yanvar yaqut, fevral ametist, mart yəşəm, aprel dağ bülluru, may zümrüd, iyun mirvari, iyul əqiq, avqust xrizolit, sentyabr sapfır, oktyabr opal, noyabr topaz, dekabr fıruzə daşı sayılır. İndiki dövrdə də bəzi qadınlar aylara uyğun bəzək daşı gəzdirməyi sevirlər. Əhalinin

müxtəlif muncuqlara münasibəti eyni olmamışdır. Xüsusilə "kauri" adlanan asmalar da eyni zamanda həm bəzək, həm də amulet kimi istifadə olunurdu. Azərbaycanlılar kauriləri «qarnıyarıq» adlandırmış və hesab etmişlər ki, kaurilərdə xəstəliklərin qarşısını almaq qüvvəsi vardır.

Arxeoloq A.Qaraəhmədova Talış bölgəsində apardığı şifahi sorğular nəticəsində müəyyən etmişdir ki, kaurilərə olan etiqad xalq arasında hələ də yaşamaqda davam edir. İnama görə, kaurilər qusmanı saxlayır, yuxu gətirir və ağrıları kəsir, pis nəzərdən qoruyur (8, 45). Kaurilər qoruyucu kimi körpə uşaqların qollarına bağlanır, yaxud da paltarlarına tikilir. Altay şaman ölkəsində samanların paltarlarının çiyninə üç cərgə olmaqla 9 ədəd kauri tikir və bunu ilan başı (yılan başı) adlandırırlar (9, 3-4).

Təkcə qiymətli daşlar deyil, həmçinin bəzək növləri olan kəmər, sırğa, üzüklər və digər bəzək əşyaları da xalqın estetik görüşləri ilə yanaşı, onların inam və etiqadlarının öyrənilməsində mühüm rol oynayır. Məsələn, kəmərlə hər hansı şəxsin ictimai mövqeyini müəyyən etmək olurdu. Kəmərlə onu gəzdirən şəxsin vəzifəsini, var dövlətini, dini əqidəsini, milliyyətini və hətta yaşını da bilmək olurdu. Pis nəzərdən və ruhlardan qorumaq üçün də amulet kimi kəmərdən istifadə olunmuşdur. Kəmərlənmək özünü bir növ şər qüvvələrdən mühafizə etmək, qorumaq deməkdir. Müxtəlif dövrlərdə müxtəlif xalqların əfsanə və nağıllarında «özünü dairəyə almaq» ifadəsinə çox rast gəlirik (10, 87).

Kəmərə etiqadı azərbaycanlılar arasında da görürük. Azərbaycanın çox yerlərində yağışdan sonra qövsi-quzehi (göy qurşağı) «qarı nənənin qurşağı» və yaxud «qarı nənənin örkəni» adlandırırlar. «Qurşaq» sözü «Kitabi-Dədə Qorqud»da «quşaq» kimi işlənmişdir. Bu sözün ilkin mənası «bağlamaq» anlayışı ilə konkretləşdirildiyi halda, sonradan ona bəzək əşyası da əlavə olunmuşdur. Qədim mənbələrdə qurşaq sözündəki «qur» kökünün müstəqil mənası aşağıdakı nümunələrdə mühafızə olunmuşdur: «Gur kəmər, belbağı, ər gurun kurşandı», «kimi kəmərini qurşadı» (bağladı) (11, 249). Sonrakı dövrlərdə eyni mənaya malik olsa da, bu bəzək əşyası kəmər kimi işlənilmişdir. Nizami gəncəvinin əsərlərində etnoqrafık məlumatları təhlil edən etnoqraf Ş.Bünyadova kəmərlərə şairin verdiyi təsvirlə yanaşı, öz münasibətini də bildirir. O, yazır: «Xəmsə»də təsvir edilən müxtəlif bəzək növlərindən biri kəmərlərdir. Kəmər qadın paltarlarının daha yaraşıqlı görünməsində əsas rol oynayır, onu tamamlayır və gözəlləşdirir. Qadın geyimlərinə xüsusi yaraşıq verən kəmər onların bədənini cazibədar göstərir. Müxtəlif növlərə malik olan kəmərlər bəzən daş-qaşla bəzədilirdi. Bunu şair belə təsvir edirdi.

Kəmərlərdə parlayan gecə işıqlandıran gövhərlər
Gündüzün gözünü qamaşdırırdı (12, 158).

Minlərlə qızıl kəmər bağlamışdı
Hamısının qızıl sikkələrinin mıxı sındırılmışdır» (13).

Kəmərin qadının ailədə ictimai rolunu göstərmək üçün də əhəmiyyəti vardır. Bəzi adətlərə görə qızlar kəmər taxmırdılar. Onlara kəməri toy hədiyyəsi kimi valideynləri bağışlayırdılar.

Azərbaycanlı qadınların həyatında digər bəzəklərə nisbətən üzük və sırğalar da əhəmiyyətli rol oynamışdır. Onlar çox vaxt bütün ömürləri boyu bu bəzəkləri qulaqlarında və barmaqlarında gəzdirirdilər. Yaş

dövrü ilə əlaqədar bu bəzəklərin formaları, naxışları dəyişilsə də, ümumi forması dəyişilməz olmuşdur. Sırğa və üzük əsas bəzək əşyaları olmaqla yanaşı, qoruyucu xarakterə də malik idi. Bunu ailədə körpə oğlan uşaqlarının bir qulağına sırğa keçirilməsi adəti sübut edir. Və yaxud, körpəni birinci dəfə çimizdirilməsi zamanı suya duz və kömürlə bərabər, həm də üzük salırdılar. Bu adət bir sıra şərq xalqları arasında da mövcud olmuşdur (1, 98). Azərbaycanlılarda belə etiqad var idi ki, qadın xörək və ya çörək bişirdiyi vaxt barmağında mütləq üzük olmalı idi. Əks halda qadının əlləri təmiz sayılmırdı.

İnamlara görə, gümüş pis qüvvələrə qarşı etibarlı müdafiə vasitəsidir. Orta əsrlər dövründə üzüklər bəzək əşyası olmaqla yanaşı, həm də sitayış obyekti idi. Ömər Xəyyama (XII) görə, hər bir şəxsin öz üzüyü olmalıdır (14, 199).

Yazılı mənbələr və arxeoloji materialların tədqiqi göstərir ki, qədim məişətdə üzük əsas etibarilə bəzək əşyası kimi istifadə olunmuşdur. Bununla yanaşı bu əşyada mifoloji təfəkkürün izlərini də görmək mümkündür. Təpəgöz aydır: «mərə oğlan, al sol barmağındakı yüzügi, parmağına tağ, sana ox və qılınc kar eyləməsin» (11, 101). Azərbaycan xalq nağılları və dastanlarında da üzük sehrkarlıq obyekti kimi təsvir olunmuşdur. Hətta müasir dövrümüzdə xalq arasında üzüklə əlaqədar bir sıra falabaxma və oyunlar mövcuddur. Bunlardan üzük falı daha geniş yayılmışdır. Bu zaman bir neçə qız bir yerə yığışıb üzük falı açırlar. Bir qab götürüb içinə su tökürlər. Üzüklərini çıxarıb həmin qabın içinə atırlar. Kənardan başqa bir qız çağırırlar. Həmin qız qabın içindən götürdüyü üzüyü yiyəsinə düzgün verərdisə, həmin qızın bütün arzuları həyata keçəcəkdi. Əgər üzük yiyəsinə düz qaytarılmasa idi, üzüyü iynədən keçmiş əyrilmiş pambıq sapının ortasına salırdılar. Əgər üzük düz gedirsə, həmin adam sonsuz, sağ tərəfə çoxlu uşağı, sol tərəfə gedərsə istədiyi oğlanla xoşbəxt olacağı gözlənilirdi.

## QEYDLƏR


1. Чвырь Л.А. Таджикские ювелирные украшения. М.: Наука, 1977.
2. Аль-Бируни. Собрание сведений для познания драгоценностей (Минерология). Перевод А.И.Белиницского. Л. Изд-во АН СССР, 1963.
3. Nəsirəddin Tusi. Tənsupnameyi-Elxani (Cəvahirnamə). Bakı: Elm, 1984.
4. Михайлович Г.Р. Сообщение Насиреддина Туси о резном изумруде Хорезмшаха Текешаха. В кн. Средняя Азия и Иран. Л., 1972.
5. Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Bakı: Elm, 2000.
6. Семёнов А.А. Из области воззрений мусульман Средней Азии на качество и значимости некоторых благородных камней и минералов. Мир ислама. Спб., 1912, т.1, №3.
7. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı: Elm, 1981.
8. Тагиева Р. Караахмедова А. Бусы талышской зоны. Археологические и этнические изыскания в Азербайджане (1974 г.). Сб. статей. Баку: 1980.
9. Богаевский Б.Л. Раковины в расписной керамике Китая, Крита и Триполи. Известия ГАИМК. Л.: 1931, т. 6, вып. 8-9.
10. Халилов Дж.А. О раннесредневековом могильнике у села Гусарского района. Археологические и этнографические изыскания в Азербайджане. 1973. Баку: Издво: Элм, 1974.
11. Kitabi Dədə Qorqud. Bakı: Gənclik, 1978.

12. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Elm, 1981.
13. Bunyadova Ş.T. Nizami və Etnoqrafiya. Bakı: Elm, 1992.
14. Омар Хайям. Трактаты пер. Розенфельда. Изд-во восточной литературы. 1961.

## ЖЕНСКИЕ УКРАШЕНИЯ И СВЯЗАННЫЕ С НИМИ ОБЫЧАИ

Б. А.РАДЖАБОВА

### РЕЗЮМЕ

Среди найденных материальных культур из археологических памятников Азербайджана большинство составляют женские украшения. Женские украшения всевозможных форм и функции представляют собой основные элементы не только материальной стороны нашего народа, но и мифические мировоззрения. С этой точки зрения в данной статье рассмотрены некоторые детали связанные с этой стороной женских украшений.

## WOMAN`S ADORMENT AND CUSTOMS CONNECTING WITH THEM

B.A.RAJABOVA

### SUMMARY

A large number of cultural materials found between archeological monumets of Azerbaijan drow up woman`s adornment.

All froms and functions of woman`s adornment gives the main elements not only the meterial side of our people but its mythical world outlook. From this point of view in the given article regarded same details connecting with this aspect of woman`s adorment.